# Tərifsiz ömrün də öz tərifi var

**Xarakterlər**

Eynilik, oxşarlıq çox baxanda gözü yorur, oxuyanda təkrarlıq sayılır və sona qədər oxunmur, dinləyəndə isə beyin dumanlanır və yaddaşlara tamlığı ilə köçmür. Ancaq bu oxşarlıqda elə cizgilər var ki, onların diqqətinə yetmək, oxşarlığı fərqləndirmək lazım gəlir. İnsanlar bəzən eyni taleyi yaşar deyiblər, ancaq bu ilk baxışdan belə görünür. Çünki bu oxşarlığın ayrı-ayrılıqda keşməkeşli bir yolu var.

İnsan var ki, emosional, həyat dolu olur, insan da var özünə qapılır, ən çox qəlbi ilə, düçüncələri ilə danışır. İnsan da var gözəl duyğu və düşüncələrin əsiri olur, xoşbəxt, fədakar biri olsa da, öz xarakterini üzə çıxara bilmir. Bax, belə xarakterləri onun qarşılaşdığı insanlar duya və görə bilirsə, o zaman o insanlar gələcəkdə öz yerini tuta bilir. Yoxsa zamanın çillekənlərində ilişə-ilişə, çırpıla-çırpıla həyatın gözəlliyini də duymağa vaxt tapmır... hər kəsin həyat yolu onun yaşadığı mühitdən qaynaqlanır. Ailə və məktəb isə əsas təzahürdür. Ən adi laqeydlik, soyuqluq insanın insan kimi tam yetişməsində öz izlərini hiss etdirir. İnsan var qılaflanır, A. Çexovun "Qılaflı adam" hekayəsindəki Belikov kimi. İnsan da var qılafından elə istifadə edir ki... Zamanın nəbzini asan tutur və "yaşayır". İnsan var ki, insanlığın naxışı olur, insan var ki, insanlığını, xarakterini biruzə verməyi bacarmır və hər şeyi öz axarına buraxır... Bəli, beləcə taleyüklüdür insanlar...

**Vətənpərvərlik döyüşləri**

Ziyalı bir ailədə doğulmuşdu Tərlan Murad oğlu Seyidov. Atası da, anası da doğulduğu Mirzəbəyli kəndində, orta məktəbdə müəllim işləyirdilər. 1968-ci il təvəllüdlü Tərlan 1985-ci ildə orta məktəbi bitirmiş, 1986-1988-ci illərdə Rusiyanın Yaroslavl şəhərində hərbi xidmətdə olmuşdur. 1990-cı illərin ürəkağrıdan hadisələri, torpaqlarımızın mənfur ermənilər və onların himayədarları tərəfindən zəbt olunması Tərlanı da narahat edirdi...

Xalqının yaşadığı faciələr, vətəninin vətəndaşı olmaq hissi I Qarabağ müharibəsinin ən qaynar dönəmində onu döyüşçü olmağa sövq etdi.



859-cu hərbi hissədə milli qəhrəman Fred Asifin tabeliyində Naxçıvanik Aranzəminli, Pircamal, Kəmik, Şelli kəndlərində, Ağdam ətrafında gedən döyüşlərdə döyüşmüşdür. Döyüşlərdə öz həmyerliləri-baş leytenant Musa Əzizov, baş leytenant Şakir Ağababayev, əsgər Tehran Xəlilovla vuruşmuşdur.

**Köhnə əsgərin dedikləri**

Baş çavuş Tərlan Seyidovun dedikləri: Naxçıvanikdə ağır döyüşlər gedirdi. Bu döyüşlər zamanı Çingiz Mustafayev gözlərimiz önündə şəhid olmuşdu, bu, bizi çox sarsıtmışdı.

Biz müharibəyə gedərkən 120 nəfər qəbələli idik, onlardan şəhid olanlar da çox idi, qazilər də... Nə şəhid oldum, nə qazi, mütəəssir olsam da, bu, Allahın yazısı idi, taleyimin yazısı... O illərin müharibəsində də oğullarda vətən eşqi, torpaq sevdası güclü idi, hər kəs bütün çətinliklərə baxmayaraq, şücaətlə döyüşürdülər. Vahid komandanlıq yox idi, əsgərlər döyüş avadanlıqları ilə normal təmin olunmurdular. Ərazilərimizin əksəriyyəti bəzən döyüşlərsiz işğal olunurdu...

Biz həmişə qələbə əzmi ilə döyüşmüşdük, özümüzü heç vaxt məğlub əsgərlər sanmamışıq. Bu bizim döyüşlərdə qanı, canı bahasına iştirakçı olmağımızdan, əqidə və vicdani baxımdan qarşımızdakı düşməndən həmişə üstün olmağımızdan irəli gəlirdi. 4 il davam edən I Qarabağ müharibəsində yüzlərlə şəhid verdik, torpaqlarımızın da 20 faizi düşmən tapdağında qaldı...



Müharibə veteranı ona heyifsilənirdi ki, biz qələbəni düz 26 il gözlədik. 1994-cü ildə atəşkəs imzalandıqdan sonra demək olar ki, hər gün mənfur, vandal ermənilər tərəfindən atəşkəs pozulurdu. Dövlətimiz humanistliyi ilə Qarabağ məsələsini sülh və danışıqlar yolu ilə həll etmək istəyirdi. Ancaq dövlətimizin Prezidenti torpaqlarımızı lazım gələrsə müharibə yolu ilə, döyüşərək azad etməyi həmişə qeyd edirdi... və lazım gəldi... Səbrin də bir dərəcəsi var...

**Ağıl hökm eyləyir, dünyada ağıl**
**Bir ağlın barıdır bəzən bir ölkə.**

Müharibə labüd idi, Qordi düyünü də çözülməli idi. 2016-cı ilin aprel döyüşləri, iyul hadisələri müharibənin mütləqliyindən xəbər verirdi. Erməni vəhşilikləri, vandalizmi, vulqarizmi ölkə rəhbərliyinin səbrini daşdırdı. 2020-ci ilin sentyabrın 27-də düşmənə qarşı əks-hücum, qisas müharibəsi başladı. Bu müharibəyə xalq, xalqın igid oğulları səfərbər oldular. Güclü ordumuz, Ali Baş Komandanımızın siyasəti ilə igid vətənpərvərlərimiz "dəmir yumruq" ətrafında birləşdi. Yüzlərlə vətənpərvər oğul könüllü olaraq II Qarabağ müharibəsində döyüşə yollandı.

**Ata getdiyi yolu...**

Müharibəni kinofilmlərdə, sənədli televiziya verilişlərində görmüş, bu haqda atasının, eləcə də müharibə veteranlarının söhbətlərində eşitmişdi. Öz düşüncə dünyasında o qədər müharibə və döyüşlərdə "iştirakçı" olmuşdu ki... Ancaq bu yuxu, düşüncə xülyaları deyildi, həqiqətən düşmənlərdən qisas almağın, onları vətən torpaqlarından qovmağın məqamı idi...

2020-ci ilin 27 sentyabrında Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciətindən sonra Nurlan da döyüşlərdə iştirak etmək üçün könüllü səfərbərliyə yollandı... oktyabrın üçündə yenidən əsgər libası geyindi. Əvvəlcə Mingəçevirə, sonra isə döyüş bölgələrinə göndərildi.

Nurlan Tərlan oğlu Seyidov 1998-ci ildə Qəbələ rayonunun Mirzəbəyli kəndində dünyaya göz açıb. 2015-ci ildə kənd orta məktəbini başa vurub, ali məktəbə qəbul ola bilmədiyi üçün 2016-cı ildə əsgəri xidmətə çağırılmışdır. Hacıqabulda "N" saylı hərbi hissədə 2018-ci ilədək əsgəri xidmətdə olmuş, çavuş kimi əsgəri xidmətini başa vurmuşdur. Qarabağ bölgəsini görməsə də, o, torpağın vətənin dilbər guşəsi olmasını atasının söhbətlərindən eşitmişdi... İndi isə işğal altında olan, vandalların əsir etdiyi o torpaqlar uğrunda vətənpərvərlik və qorxmaz əqidə ilə döyüşlərə gedirdi. Döyüşlərə Goranboyun Tapqaraqoyunlu kəndindən başladı, Tərtər rayonunun Talış, Suqovuşan kəndlərində, Füzuli rayonu, Hadrut qəsəbəsi istiqamətində işğal altında olan torpaqlarımız uğrunda gedən döyüşlərdə igidliklə döyüşmüşdür. Oktyabrın 26-da Füzuli rayonunun Seyidəhmədli kəndində gedən qızğın döyüşlərdə düşmənin snayper gülləsi ilə kürəyindən ağır yaralanır və uzun müddət yaralı qaldığı üçün çoxlu qan itirərək huşunu itirir. Ancaq bir-birinə sədaqətli olan əsgər yoldaşları tərəfindən ölümün pəncəsindən qurtarılır. Əvvəlcə Füzuli rayonunun diaqnostika mərkəzinə yerləşdirilir. Sonra isə Beyləqan rayon Mərkəzi xəstəxanasına gətirilir və burada iki dəfə cərrahi əməliyyat olunur. Vəziyyəti yaxşılaşdıqdan sonra yenidən Mingəçevir şəhərinə, "N" saylı hərbi hissəyə göndərilir. Dekabrın 6-da ordu sıralarından tərxis olunur.

Atasının iştirak etdiyi I Qarabağ müharibəsində çözülməyən "Qordi düyünü" Nurlanın iştirakçısı olduğu II Qarabağ -Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin hərbçi taktikası və düzgün siyasəti nəticəsində, öz ordusuyla birgə "Dəmir yumruğu" sayəsində çözüldü, tarixi Qələbə qazanıldı.

Bu müharibədə talelər eyniləşdi. Ata da, oğul da Vətən Müharibəsində iştirakçı oldu, torpaqlarımız uğrunda igidliklə döyüşdülər. Sağlamlıqlarını itirdilər, ancaq ölümsüzlük qazandılar, odun, alovun içində qorxmazlıq, igidlik missiyasını qazandılar, vətənə, torpağa daha çox bağlandılar. "Qanı, canı bahasına" kəlamının həqiqi üzünü yaşadılar, sədaqəti, nifrəti yaşadılar, həyat dolu dostlarının bir çoxunun şəhadətini gördülər. Fərq onda idi ki, qaçqın sözünün ağırlığından "əzilən" həmvətənlərinin həsrətinə son qoydular. Ancaq bu həqiqət yolunda nə tərif gözlədilər, nə də təltif. Çünki adi bir veteran adı belə almayan Tərlan və qazi oğlu Nurlan yalnız Vətən uğrunda döyüşdüklərini və Qələbənin sevincini yaşayırlar. Sevimli şairimiz Məmməd Araz demiş:

*Demə hər addımda şöhrətin hanı,*
*Tərifsiz ömrün də öz tərifi var.*
*Sübuta çalışar öz varlığını,*
*Yalnız varlığına inanmayanlar!*

**Bibixanım İSAYEVA,**
**"Qəbələ"**

# Vətən məhəbbəti daha güclüdür

Vətən zəhmətkeş, çətinliklə böyüyən, halal zəhmətlə boya-başa çatanlarındır! Vətən qayalarda mamır olub bitənlərindir! - Vətən onlara oğul deyər! Oğul deyilənlər də qanını halal, canını fəda edərlər! Əfqan da məhz belə oğullardandır!



Qəbələ rayon Vəndam qəsəbə sakini Alizadə Əfqan 1992-ci il təvəllüdlüdür. Atasızlığın acısını hər an çəkən, ancaq mərd, qorxmaz bir gəncdir! Qəsəbə 3 saylı məktəbi bitirdikdən sonra 2011-ci ildə əsgəri xidmətə çağrılır. Əsgəri xidmətdə olarkən 3 ay artilleriya qrupunda kəşfiyyatşı olmuşdur. Minaatan batalyonunda idarəetmə bölüyündə kəşfiyyat manqa komandiri olmuşdur.

2020 - ci ilin sentyabr ayının 28-dən döyüş bölgəsində igidliklə vətəni müdafiəyə başlamış, müxtəlif istiqamətlərdə erməni işğalçılarına qarşı vuruşmuşdur. Noyabrın 4 - də döyüş bölgəsində yaxınlığına düşən 120 - lik minadan ağır yaralanmış, noyabrın 5-də Qəbələ rayon mərkəzi xəstəxanasına göndərilmişdir. Bir müddət burada müalicə aldıqdan sonra yenidən cəbhə bölgəsinə qayıdaraq döyüşlərdə təkrar iştirak etmişdir... Laçın dəhlizinin alınması uğrunda gedən döyüşlərdə yenidən yaralanmışdır...

Bəli, Tanrı ölüm yazmayıbmış ona... Ona görə də qazidir! Xəstə,narahat anasını Allahın ümidinə buraxıb Vətəni bizlər üçün qorumaq, Vətəni bütövləşdirmək, torpağı bizimkiləşdirmək üçün döyüşdü! Çünki o, bilirdi ki, torpaqlarımız yağı tapdağında olanda anaların üzü gülməz! Vətən bütöv olmazsa, gələcək nəsillər qınağa çəkər! Bunu isə yalnız halallıqla böyüyən və vətən daşı olan,vicdanının diktəsi ilə hərəkət edənlər düşünərlər!

Əfqan döyüş şücaətinə görə "Vətən uğrunda" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Canını belə verməyə hazır olan qazimiz bu günün gənclərinə hərbi vətənpərvərlik, milli-mənəvi dəyərlərin qorunması minanslarında örnək bir gəncdir. Vətən məhz belə oğullar - Musa Cəlilin dediyi kimi,

Ölümün qolları güclü olsa da,
Vətən məhəbbəti güclüdür ondan...- düşünənlərlə Vətəndir! Belə vətənpərvər oğullarla fəxr edirik.

**Gülnarə İSRAYILOVA,**
**Qəbələ şəhəri.**

# Qürur hissi

2020-ci il ölkəmizin tarixinə Zəfər ili, torpaqlarımızın işğaldan azad olunduğu il kimi düşdü. 44 günlük vətən müharibəsi düşmənin sarsıdıcı məğlubiyyəti ilə nəticələndi. Azərbaycan xalqı bu müharibədən üzüağ, alnıaçıq çıxdı, böyük zəfər, şanlı qələbə qazandı.

II Qarabağ müharibəsində qanları ilə tarix yazan qəhrəmanlarımızın hər biri dastana çevrildi. Xalqa bu qələbəni bəxş edənlər adlarını zəfər tariximizə yazdırdı. Hər millətin fəxri,qürur yeridir şəhidlər, qazilər, əsgərlərimiz.

Döyüş meydanında düşmənə ağır məğlubiyyəti yaşadan müzəffər ordumuzun igid döyüşçülərindən biri də Ağababayev Faiq Vahid oğludur. O, 30 illik həsrətə son qoyan Vətən müharibəsindən qazi kimi geri döndü. Qazimiz 1997-ci ildə Qəbələ rayonunun Kiçik Pirəli kəndində anadan olub. 2004-cü ildə Kiçik Pirəli kənd tam orta məktəbinin 1-ci sinfinə qədəm qoyan Faiq 2015-ci ildə həmin məktəbi bitirib hərbi xidmətə yollanmışdır. Hərbi xidmətdə olarkən atası vəfat edən qazimiz hərbi xidməti bitirdikdən sonra ailənin bütün yükünü üzərinə götürür, atasından öyrəndiyi çilingərlik peşəsi üzrə çalışmağa başlayır. 29.09.2020-ci ildə səfərbərliklə əlaqədar yenidən hərbi xidmətə çağırılır.



İgid döyüşçümüz Füzuli, Hadrut, Cəbrayıl, Xocavənd və Şuşa uğrunda gedən döyüşlərdə əsl vətən oğlu kimi şücaətlə vuruşmuş, Şuşa ətrafında gedən döyüşlərdə yaralanmışdır. Mənfur düşmənin atdığı minamyot mərmisindən çıxan qəlpələr döyüşçümüzü başından, çiynindən və ağ ciyərindən yaralayır. Hadrutda ilkin tibbi yardım alan qazimiz öncə Füzuliyə, aldığı yaralar daha ciddi olduğu üçün sonra Bakıya hərbi qospitala göndərilir. Bir müddət müalicə aldıqdan sonra Bakı Sağlamlıq Mərkəzinə yerləşdirilir. Hal-hazırda qəhrəman qazimizin müalicəsi ev şəraitində davam edir.

Döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə qazimiz Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamları ilə "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.Döyüşlərdə yaralanaraq sona qədər gedə bilmədiyi üçün təəssüflənən qazimiz torpaqlarımızın azad olunmasında əməyi olduğu üçün fəxr və qürur hissi keçirir.

Biz də sizlərlə fəxr edirik , Vətən oğulları! Allah sizləri qorusun!

**Əfsanə ZAKİROVA,**
**«Qəbələ»**